*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*11 (2) 2024*
*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received:23.11.2023*
*Kabul tarihi |Accepted:25.01.2024*
*Yayın tarihi |Published:25.04.2024*
*https://doi.org/10.46868/atdd.2024.*

**Gülnarə Əliyeva**

https://orcid.org/0009 0003 5689 9537
*National Defense University, Military-Scientific-Research Institute researcher*
*gulnara_aliyeva94@mail.ru*

*Atıf Künyesi | Citation Info*

Əliyeva, G. (2024). Bakının azad edilməsi mövzusu "Azərbaycan" qəzetinin səhifələrində. *Akademik Tarih ve Düşünce Dergisi, 11* (2), 1442-1454.

# Bakının azad edilməsi mövzusu "Azərbaycan" qəzetinin səhifələrində

***Xülasə***

*1918-ci il may aynın 28-də dövlət müstəqilliyi elan edildikdən dərhal sonra Azərbaycan hökuməti ilə Osmanlı dövləti arasında dostluq müqaviləsi imzalandı. 1918-ci il iyun ayının 4-də Batumda imzalanmış həmin müqavilənin 4-cü maddəsində nəzərdə tutulmuşdu ki, zərurət yarandığı halda Azərbaycan Xalq Cümhuriyyətinə hərbi kömək göstəriləcəkdir. Cümhuriyət hökuməti yaranmış mürəkkəb hərbi-siyasi şəraitdə bu imkandan yararlanaraq hərbi kömək göstərilməsi üçün Osmanlı dövlətinə rəsmi şəkildə müraciət etdi. Həmin müraciətə əsasən Azərbaycana məhdud sayda Osmanlı hərbi qüvvələri göndərildi. Bu qüvvələrlə Azərbaycanın mövcud milli hərbi qüvvələrinin bazasında Qafqaz İslam Ordusu yaradıldı. Qafqaz İslam Ordusunun Azərbaycann ərazi bütövlüyü uğrunda apardığı mübarizənin zirvəsini 1918-ci il sentyabr aynın 15-də Bakı şəhərinin erməni-bolşevik və yad qüvvələrdən azad edilməsi təşkil edirdi. Bakı şəhərinin yad qüvvələrdən azad edilməsi tarixinin öyrənilməsi üçün Azərbaycan hökumətinin rəsmi mətbu orqanı olan "Azərbaycan" və "Azerbaidjan" qəzetlərinin səhifələrində də maraqlı məlumatlar mövcuddur. Hazırkı məqalə də Bakı şəhərinin Qafqaz İslam Ordusu tərəfindən azad edilməsi ilə bağlı "Azərbaycan" və "Azerbaidjan" səhifələrində getmiş məlumatların təhlilinə həsr edilmişdir.*

CC BY NC Creative Commons Licence

***Açar sözlər:*** *Azərbaycanın müstəqilliyi, Qafqaz İslam Ordusu, Bakı şəhərinin azad edilməsi, Cümhuriyyət mətbuatı, milli hərbi qüvvələr*

# The topic of the liberation of Baku is on the pages of "Azerbaijan" newspaper

***Abstract***

*On May 28, 1918, immediately after the declaration of state independence, a friendship treaty was signed between the government of Azerbaijan and the Ottoman state. Article 4 of that agreement, signed in Batum on June 4, 1918, stipulated that military assistance would be provided to the Azerbaijan Democratic Republic if necessary. Taking advantage of this opportunity in the complex military and political situation, the government of the Republic officially appealed to the Ottoman state for military assistance. Based on that request, a limited number of Ottoman military forces were sent to Azerbaijan. With these forces, the Caucasian Islamic Army was created on the basis of the existing national military forces of Azerbaijan. The peak of the struggle of the Caucasian Islamic Army for the territorial integrity of Azerbaijan was the liberation of Baku from the Armenian-Bolshevik and foreign forces on September 15, 1918. In order to study the history of the liberation of Baku from foreign forces, there is also interesting information on the pages of "Azerbaijan" and "Azerbaidjan" newspapers, which are the official press bodies of the government of Azerbaijan. The current article is devoted to the analysis of the information published on the "Azerbaijan" and "Azerbaidjan" pages about the liberation of Baku by the Caucasian Islamic Army.*

***Keywords:*** *independence of Azerbaijan, Caucasian Islamic Army, liberation of Baku city, press of the Republic, national military forces*

## Giriş

1918-ci il sentyabr ayının 15-də Qafqaz İslam Ordusunun fədakar mübarizəsi ilə Bakı şəhərinin yad qüvvələrin işğaından azad edilməsi Azərbaycanın müstəqillik tarixinin şərəfli bir səhifəsidir. Bu tarixin öyrənilməsi üçün istər Azərbaycan arxivlərində, istərsə də Qafqaz İslam Ordusunun Türkiyədə mühafizə olunan arxivlərində kifayət qədər ilkin və mötəbər sənədlər saxlanmaqdadır. Bu sənədlərə istinad etməklə Bakı şəhərinin azad edilməsi uğrunda aparılan mübarizənin mükəmməl tarixini yaratmaq mümkündür. O illərdə Azərbaycanda çap olunan qəzetlərin əməkdaşları da Bakı uğrunda gedən mübarizəni diqqətlə izləyirdilər. Doğrudur, bu qəzetlərin heç də hamısı Azərbaycan xalqının milli maraqlarının keşiyində dayanmırdılar. Bununla belə, həmin əməkdaşlar da öz maraqları çərçivəsində Bakı şəhəri uğrunda aparılan mübarizəni izləyirdilər. Sözsüz ki, həmin əməkdaşların yazıları da Bakı şəhərinin azad edilməsi uğrunda aparılan mübarizənin tam mənzərəsinin yaradılması baxımından müəyyən əhəmiyyət daşıyır. Bakı uğrunda aparılan mübarizənin qəzet səhifələrində daha obyektiv işıqlandırılması isə "Azərbaycan" qəzetinə məxsusdur. Bu qəzetdə bu mövzu ilə bağlı xeyli sayda yazı çap olunmuşdur ki, onlar bu gün də elmi-tarixi əhəmiyyət kəsb edirlər.

## 1.Bakı şəhəri uğrunda aparılan mübarizənin gedişi "Azərbycan" qəzetinin səhifələrində

Azərbaycan hökumətinin rəsmi mətbu orqanı olan "Azərbaycan" qəzetinin ilk nömrəsi 1918-ci il sentyabr ayının 15-də, yəni Bakı şəhərinin yad qüvvələrdən azad edildiyi gün Gəncə şəhərində işıq üzü görmüşdü. Qəzetin elə ilk nömrəsində də Bakı şəhərinin azad edilməsi uğrunda aparılan mübarizəni və onun nəticələrini əks etdirən məlumatlarla rastlaşmaq mümkündür. Qeyd etmək lazımdır ki, qəzetin Azərbaycan türkcəsində olan variantında çap olunmuş məlumatlar ciddi bir dəyişkliyə uğramadan qəzetin rus dilində olan variantında da şap edilmişdi. Bu xüsusiyyəti Bakı şəhərinin azad edilməsi ilə bağlı olan yazılarda da görmk mümkündür. "Azərbaycan" qəzetində Bakı ətrafında aparılan döyüşlərlə bağlı ilk məlumat 1918-ci il sentyabr ayının 2-nə aiddir. Həmin məlumat Bakı ətrafında təşkil olunmuş döyüşün nəticələri haqqında idi.

Bakı üzərinə ilk ciddi hücum 1918-ci il avqust ayının 5-də baş tutdu. Bu hücum Qafqaz İslam Ordusu qüvvələri üçün uğurla başlasa da, qarşıya qoyulan məqsədə çatmaq mümkün olmadı. Xeyli sayda itki verəndn sonra Qafqaz İslam Ordusu qüvvələri geri çəkilmək məcburiyyətində qaldılar (Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, 2004). Bu uğursuzluqdan sonra Qafqaz İslam Ordusunun rəhbərliyi qərara aldı ki, Bakı şəhərinin azad edilməsinə əlavə hərbi qüvvələr, silah və hərbi texnika cəlb edilsin. Yeni qüvvələrin cəlb edilməsi ilə güc üstünlüyünün yaradılması planlaşdırılırdı (Süleymanov, 2018). Bundan əlavə, qərar verildi ki, Bakı üzərinə həlledici hücum başlanana qədər şəhərin şimal hissəsindəki kəndlər və əlverişli mövqelər ələ keçirilsin. Qafqaz İslam Ordusunun komandanı Nuru paşa öz xatirələrində bu barədə məlumat verirdi. O yazırdı ki, Bakı şəhərinin şimal hissəsində mövqe üstünlüyünün yaradılması üçün Binəqədi-Yanardağ xətti istiqamətində döyüşlər planlaşdırıldı (Qafqaz İslam Ordusu hərəkatı, 2008). Bu planın icrası ilə bağlı 1918-ci il avqus ayının 31-də Binəqədi yüksəkliyi ətrafında Qafqaz İslam Ordusunun bölmələri ilə Bakıda hakim olan qüvvələrin bölmələri ətrafında ciddi bir döyüş baş verdi. Bakı şəhərinin taleyinin həll edilməsi üçün xüsusi əhəmiyyət kəsb edən bu döyüşdə Qafqaz İslam Ordusu qüvvələri qarşıya qoyulan tapşırıqları uğurla yerinə yetirdilər. Bu döyüşdən sonra Bakıda hakimiyyəti ələ keçirmiş Sentrokaspi adlı hökumətin rəhbərlərinin dəvəti ilə Bakının işğalının möhkəmləndirilməsi üçün İran ərazisindən dəvət edilmiş ingilis hərbi qüvvələrinin komandanı general-mayor Denstervil yazırdı ki, yaranmış vəziyyətdə artıq Qafqaz İslam Ordusu qüvvələrinin qarşısını almaq mümkün deyil (İran ərazisində düşmənin irəliləməsini dayandırmaq və Xəzər dənizinə hakim olmaq xüsusunda ingilis planları, 2008). "Azərbaycan" qəzetində verilmiş məlumat da bu

döyüşlərlə bağlı idi. Sentyabrın 2-nə aid olan həmin məlumatda deyilirdi ki, Qafqaz İslam Ordusu qüvvələri daha üç kəndi və iki möhkəmləndirilmiş yüksəkliyi düşmən qüvvələrdən azad etmişdir. Döyüşün gedişində düşmən qüvvələrindən səkkiz ədəd pulemyot, iki ədəd top, nəqliyyat arabası, və çoxlu sayda güllə ələ keçirilmişdi. Bu məlumatda da Bakıya çağırılmış ingilis hərbi qüvvələrinin ağır vəziyyətə düşməsi və çaş-baş vəziyyətdə geri qaçması təsdiq olunurdu. Qəzetin bu məlumatından aydın olur ki, Sentrokaspi-ingilis hərbi komandanlığı dənizdən döyüş gedən istiqamətə hərbi qüvvə çıxarmaq istəyirmiş. Lakin Qafqaz İslam Ordusu bölmələrinin fədakarlığı nəticəsində döyüş gedən əraziyə əlavə Sentrokaspi-ingilis qüvvələrinin gətirilməsinin qarşısı alındı. Qəzet məlumatında indiyə qədər aparılmış araşdırmalarda əksini tapmamış bir maraqlı faktla da qarşılaşmaq mümkündür. Belə ki, Qafqaz İslam Ordusu bölmələrinin sərrast atəşlərindən sonra Sentrokaspi-ingilis hərbi qüvvələrinin bir gəmisini və bir ədəd təyyarəsini sıradan çıxarmaq mümkün olmuşdu (Azerbaycan qazeti, 1918, 15 sentyabr). "Azərbaycan" qəzeti səhifələrində sentyabrın 3-5-nə aid olan məlumatlardan göründüyü kimi, Qafqaz İslam Ordusu bölmələrinin Bakı şəhərinin şimalında uğurla irəliləməsinin qarşısını almaq üçün Sentrokaspi-ingilis hərbi komandanlığı təyyarələrdən geniş istifadə etməyə çalışmışlar. Belə ki, sentyabrın 3-də düşmən təyyarəsi Qafqaz İslam Ordusunun mövqeləri üzərinə beş ədəd bomba atdı. Lakin bu bombalar ciddi bi tələfata səbəb olmadı. Sentyabrın 4-5-də də təyyarə vasitəsilə bombaların atılması davam etdi. Sentyabr ayının 5-də Qafqaz İslam Ordusu bölmələrinin topçu atəşlərindən sonra düşmən təyyarəsi tez-tələsik geri çəkilməli oldu. Sentyabr ayının 3-də Bakının şimal hissəsində olan kəndlərdən biri də düşmən qüvvələri tərəfindən azad edildi. Eyni zamanda düşmən tərəfin müdafiə mövqeləri güclü top atəşinə tutuldu (Azerbaycan qazeti, 1918, 15 sentyabr). Bakı şəhərinin azad edilməsi ərəfəsində yazılmış və "Azərbaycan" qəzetinin ilk nömrəsində çap olunmuş bir yazıda əldə edilmiş müstəqilliyin qorunması üçün Azərbaycan xalqının imdadına yetişmiş Osmanlı hərbçilərinin qəhrəmanlığı və igidliyi səmimi hisslərlə ifadə olunmuşdu. Müəllifi göstərilməyən həmin yazıda deyilirdi:

*"Azərbaycan türkləri dəxi yüz illərcə adları ağızlarında söylənilən pənahgah və ümid-gahları olan türk qardaşlarına pənah apardılar. Ömürlərin əksər vaxtını islam düşmənlərilə müharibədə keçirmiş türkün arslan oğulları, türkün qəhrəmanları şimal qardaşlarının imdadına yetib, hətta Gəncəni belə təhdid edən düşməni bir azca zamanda münhəzim edib də, hal-hazırda Azərbaycanın paytaxtını düşməndən təmizləməkdədirlər"* (Azerbaycan qazeti, 1918, 15 sentyabr).

Bakı şəhərinin azad edilməsi üçün aparılan həlledici döyüş barəsində "Azərbaycan" qəzeti səhifələrində ayrı-ayrı maraqlı məlumatlarla rastlaşmaq mümkündür. Məsələn, həmin

məlumatlardan aydın olur ki, bu həlledici döyüş sentyabr ayının 14-nə keçən gecə saat 03.00-da başlamışdı. Bakının azad edilməsi üçün aparılan döyüş 36 saat davam etmiş və sentyabrın 15-də səhər Bakı şəhəri öz azadlığına qovuşmuşdu.

Döyüşlərin gedişində şəhər daxilindəki binalar, habelə şəhər ətrafındakı neft mədənləri ciddi bir ziyanla qarşılaşmamışdı. Yalnız Rotşildə məxsus dörd neft quyusunda yanğın başlamış və bu yanğın tezliklə söndürülmüşdü. Sentrokaspi hökumətinə məxsus olan “Qars” və “Ərdəhan” hərbi gəmiləri Qafqaz İslam Ordusu qüvvələrinə təslim olmayaraq dənizə çıxsa da, sonradan ərzaq çatışmazlığı üzündən şəhərə qayıtmalı olmuşdular. Amma ərzaq aldıqdan sonra yenidən şəhərdən uzaqlaşmışdılar. Eyni zamanda o da əlavə olunur ki, “Ərdəhan” gəmisindən başqa digər bütün hərbi gəmilər nəzarət altına alınmışdır. Qəzet məlumatından aydın olur ki, döyüşün gedişində Qafqaz İslam Ordusu döyüşçülərindən əsir düşənlər də olmuşdu. Döyüşdən sonra onlar əsir götürülmüş rus döyüşçüləri ilə dəyişdirilmişdi (Azerbaycan qazeti, 1918, 25 sentyabr). Qəzetin məlumatlarından birində bildirilir ki, Bakı şəhəri üzərinə hücum çox böyük sürətlə və qətiyyətlə həyata keçirildi. Bunun nəticəsi idi ki, sentyabrın 14-də şəhərin taleyi artıq həll edilmişdi. Ona görə idi ki, ayın 15-nə keçən gecə əvvəlcə ingilis hərbçiləri, onların ardınca da Sentrokaspi hərbi qüvvələrinin böyük hissəsi gəmilərlə şəhəri tərk etmək məcburiyyətində qaldılar. Qəzet məlumatında daha sonra bildirilir ki, böyük dağıntılara yol verilməməsi üçün Bakı şəhərinə Qafqaz İslam Ordusunun azsaylı bölməsi daxil oldu. Bununla belə, düşmən qüvvələr arasında elə bir təşviş yaşanırdı ki, bu bölməyə müqavimət göstərməyə cəsarət etmədilər. Məlumatdan aydın olur ki, şəhəri tərk etmək məcburiyyətində qalan erməni-daşnak döyüşçüləri öz xislətlərinə uyğun olaraq şəhər sakinlərini soyub-talamaqdan da əl çəkmədilər (Azerbaycan qazeti, 1918, 25 sentyabr). Qəzet məqalələrinin birində Bakının azad edilməsi uğrunda gedən döyüşlərdə milli qüvvələrin sonsuz fədakarlıqla mübarizə apardıqları qeyd olunurdu. Həmin fədakarlıq belə təsvir olunurdu:

“*Bakı süqut etdi. Bizim cəsur əsgərlərimizin zərbələri altında süqut etdi. Mübarizənin aqibəti qabaqcadan məlum idi. Ancaq nifrətin kor etdiyi şəxslər bunu görmək istəmirdilər. Həqiqətən də, bir tərəfdə mənəvi cəhətdən güclü, vəzifə borcuna sadiq, çəkinmədən ölümə gedənlər, digər tərəfdə isə sayca çox və təpədən-dırnağa silahlı, fəqət qorxaq və sadəcə bütün müsəlmanlara qarşı bəslədikləri nifrəti güclü olanlar var idi*” (Azerbaycan qazeti, 1918, 22 sentyabr).

Göründüyü kimi, Bakının azadlığı uğrunda mübarizə aparanlar “mənəvi cəhətdən güclü, vəzifə borcuna sadiq, çəkinmədən ölümə gedən” döyüşçülər kimi xarakterizə olunurdu. Məhz belə keyfiyyətləri ilə fərqlənən Qafqaz İslam Ordusu döyüşçüləri Bakı şəhərini düşmən

işğalından azad etdilər və onu Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtına çevirdilər. Məlumdur ki, Bakı şəhəri üzərinə həlledici hücumun təşkili üçün Osmanlı Türkiyəsinin Şərq Ordular Qrupunun komandanı Xəlil paşa da Bakı ətrafına gəlmişdi. "Azərbaycan" qəzetində onun Bakını tərk etməsi haqqında məlumat vardır.

Bu məlumata görə, Xəlil paşa 1918-ci il sentyabr ayını 18-də Bakıdan Gəncəyə yola düşdü (Azerbaycan qazeti, 1918, 25 sentyabr). Başqa bir məlumata görə isə, Xəlil paşa sentyabr ayının 19-da Tiflisə gəlmiş və sentyabrın 20-də isə Aleksandropola doğru hərəkətə başlamışdı (Azerbaycan qazeti, 1918,19 sentyabr).

**2. "Azərbaycan" qəzeti Bakı şəhərinin azad edilməsinin tarixi əhəmiyyəti haqqında**

Bakı şəhərinin yad qüvvələrin işğalından azad edilməsi Azərbaycanın dövlətçilik tarixində xüsusi əhəmiyyət kəsb edən bir hadisə idi. Əldə edilmiş qələbənin sevincini bölüşmək üçün Nuru paşanın Azərbaycan hökumətinin rəhbəri Fətəli xan Xoyskiyə göndərdiyi teleqram "Azərbaycan" qəzetinin elə ilk nömrəsində işıq üzü görmüşdü. Həmin teleqramda deyilirdi: "*"Biminnətil-Kərim, Bakı şəhəri 15/9/34 saat 9 əvvəlində qitəatımız tərəfindən zəbt olundu. Qafqaz İslam Ordusu Komandanı Fəriq Nuri*" (Azerbaycan qazeti, 1918, 15 sentyabr).

Sentyabr ayının 15-də, günorta saatlarında Nuru paşa tərəfindən Fətəli xan Xoyskiyə başqa bir teleqram göndərildi və Azərbaycanın hökumət kabinəsi Gəncədən Bakıya dəvət edildi. Fətəli xan Xoyski bütün Azərbaycan xalqı kimi Bakı şəhərinin azad edilməsini sonsuz sevinclə qarşıladı və Azərbaycan xalqı adından Nuru paşaya öz səmimi minnətdarlığını çatdırdı. Həmin teleqramda deyilirdi:

*"Qafqaz İslam Ordusu Komandanı səadətli Nuri paşa həzrətlərinə: Təhti-komandanızda olan cəsur türk əsgərlərimiz tərəfindən Azərbaycanın paytaxtı olan Bakının düşməndən xilas edildiyi münasibətilə millətin zati-həmiyyətpərvəranələrinizə və dünyanın ən nəcib əsgəri olan türk oğullarına minnətdar olduğunu ərz etməklə iftixar edirəm, əfəndim. Heyəti-Vükəla Rəisi Fətəli xan"* (Azerbaycan qazeti, 1918, 15 sentyabr).

Fətəli xan Xoyski eyni zamanda Şərq Ordular Qrupunun komandanı Xəlil paşaya da Bakı şəhərinin azad edilməsi ilə bağlı təbrik teleqramı ünvanladı. Həmin teleqramda deyilirdi:

*"Şərq Orduları Qrupu komandanı Xəlil paşa həzrətlərinə: Bakının, Azərbaycanın istiqbalını, səadətini iqtisadən və siyasətən təmin edəcək və türk aləminin ikinci bir İstanbulu olmağa layiq bir mərkəzin türkün cəngavər, namuslu övladlarının qəhrəmanənə hücumları sayəsində düşmənlərindən xilası münasibətilə zati-aliyi-həmiyyətpərvəranələrini ən səmimanə bir surətdə təbrik edirəm. Heyəti-Vükəla Rəisi Fətəli xan"* (Azerbaycan qazeti, 1918, 15 sentyabr).

Bu təbrik teleqramında Fətəli xan Xoyskini azad edilmiş Bakı şəhərini Azərbaycanın istiqbalının, siyasi və iqtisadi səadətini təmin edəcək və türk dünyasının ikinci İstanbulu qədər əhəmiyyətə malik bir şəhər kimi gördüyünü bəyan edirdi. Çünki Bakı şəhərinin yad qüvvələrdən təmizlənməsi və onun ana Vətənə qovuşması əslində, Azərbaycanın müstəqilliyinin çox tarixi bir təsdiqi idi.

Bakı şəhərinin azad edilməsi bütün xalqın böyük sevinci ilə qarşılaşdı. 1918-ci il sentyabr ayının 15-də Bakı şəhərinin azad edilməsi xəbərini alan kimi Gəncə sakinləri şəhərdə kütləvi nümayişlər keçirdilər. “Azərbaycan” qəzetinin verdiyi məlumata görə, bu tarixi hadisəni şadyanalıqla qeyd edən Gəncə sakinləri hökumətin yerləşdiyi binanın qarşısına toplaşdılar. Cümhuriyyət hökumətinin rəhbəri Fətəli xan Xoyski kütlə qarşısına çıxaraq hökumət adından Bakı şəhərinin azad edilməsi ilə bağlı nitq söylədi və Gəncə sakinlərini bu hadisə ilə bağlı təbrik etdi. Həmin məlumatda o da bildirilirdi ki, sentyabrın 16-da hökumətin bütün üzvləri xüsusi qatarla Bakıya yola düşmüşlər (Azerbaycan qazeti, 1918, 19 sentyabr)

“Azərbaycan” qəzetinin 3 oktyabr tarixli 5-ci nömrəsində Nəsib bəy Yüsifbəylinin müəllifi olduğu ehtimal edilən yazıda (yazının müəllifi belə göstərilib – N.Y.) Bakı şəhərinin azad edilməsində və bütünlükdə Azərbaycan xalqının müstəqilliyinin möhkəmləndiriməsində qardaş Türkiyənin göstərdiyi kömək son dərəcə yüksək qiymətləndirilirdi. Kifayət qədər böyük olan bu məqalənin bir yerində müəllif yazırdı:

“*Ey cəsur Türk qəhrəmanları! Sizə layiq bir söz vardır ki, onu da Bakının alınması münasibətilə Nuri paşa həzrətlərinə Baş Vəkilimiz yazmışdır. Ondan daha münasib bir təbir bulammadığımızdan, onu mən də təkrar edirəm. Və zənn edirəm ki, üç kəlmədən ibarət olan bu cümləni, Azərbaycan durduqca hər bir Azərbaycanlı türk qəlbində yaşadacaq və dilində təkrar edəcəkdir: “Millət sizə minnətdardır”* (Azerbaycan qazeti, 1918, 3 oktyabr).

“Azərbaycan” qəzetinin elə ilk nömrələrində Bakı şəhərinin azad edilməsinin tarixi əhəmiyyətini əks etdirən yazılar mövcuddur. Bu yazılarda ifadə olunan firiklərə görə, beynəlxalq aləmin, xüsusilə də Bakıda gözü olan xarici qüvvələrin bu hadisəni böyük həyəcan və təşvişlə qarşılaması da Bakı şəhərinin azad edilməsinin tarixi əhəmiyyətinə bir sübutdur. Belə qüvvələr müxtəlif bəhanələr ətrafında Bakının yad qüvvələrdən azad edilməsi üstünə kölgə salmağa çalışırdılar (Azerbeycan qazeti, 1918, 22 sentyabr).

C. Dağıstani adlı müəllif Bakının azad eilməsinin tarixi əhəmiyyətinə toxunarkən yazırdı ki, sentyabr ayının 15-i türk və islam aləminin ən səadətli və şövkətli günlərindən biri kimi yadda qalacaqdır. Həmin gün türk və islam tarixinin qızıl səhifələrindən birinə çevriləcəkdir. Müəllifin sözlərinə görə, məhz həmin tarixdə Bakı şəhəri azad edildi və bu şəhərin azad

edilməsi yalnız Azərbaycan üçün deyil, bütün türk və islam aləminin siyasi və mənəvi həyatında dəyərli bir hadisədir. Müəllifə görə, Bakı şəhəri azad edilməsəydi, türk və islam övladları ağır günlər yaşamalı olacaqdılar (Azerbaycan qazeti, 1918, 3 oktybr). Müəllifi göstərilməyən belə yazılardan birində deyilirdi ki, Bakının azad edilməsi ilə beynəlxalq dələduz və oğruların Zaqafqaziyadakı axırıncı dayağı da süqut etdi. Bildirilirdi ki, belə qüvvələr sosializm bayrağı altında bu gün bolşevik, o biri gün menşevik donuna girərək, bəzən də sadəcə olaraq çernosotenlərə qarışaraq, yerli xalqa və məmləkətin qanuni hakimiyyətinə müxtəlif formada zülm edir və ən axırda da ingilis qızılına satılaraq, bütün Zaqafqaziyanı qanlı döyüşlərin səhnəsinə çevirməyə çalışırdılar. Məqalədə ifadə olunan fikrə görə, Bakıda özlərini "sosializm" mübarizləri kimi göstərənlər rus inqilabının tarixində ən mənfi, ən xoşagəlməz rolu oynamışdılar. Çünki beləları "müqəddəs kumir" donuna girərək, özlərinin yaramaz və qana susamış məq-sədlərinin, tamahkar və eqoist ehtiraslarının əsirinə çevrilmişdilər (Azerbaidjan, 1918,19 sentyabrya). Məqalədə sonra deyilir ki, "sosializm"in ardıcıllarının bu qanlı əməllərinə baxmayaraq tarixin təbii təkamülünün qarşısını da almaq mümkün olmadı. Belə ki, hər kəs üçün məqbul hesab edilən, ancaq müsəlmanlara şamil edilməyən, xalqların öz müqəddəratını təyin etmə prinsipi nəhayət ki, müsəlmanlara da şamil edildi. Vaxtilə bəzi avantüristlər xalqı bu hüquqdan məhrum etmişdilərsə də, Türkiyə və Azərbaycanın cəsur oğullarının süngüləri xəyalpərəst siyasət dəllallarına, onların iddialarının əsassızlığını sübut etdi. "Biz də istiqlaliyyət haqqına sahibik, biz də həyat haqqına sahibik. Nə zirehlilər, hidroplanlar, aeroplanlar, kanonerlər, tikanlı məftillər, minalar və digər texniki avadanlıqlar, nə ingilislər, ya da başqa bir qüvvə, tarixin təbii təkamülünə mane ola bilməz. Özünün 50 minlik ordusu, texnikası ilə birgə Bakının, nisbətən kiçik bir qüvvə qarşısında süqut etməsi, öz xoşbəxtliklərini başqalarının bədbəxtlikləri üzərində qura biləcəklərini düşünən bütün bədxahlar üçün açıq-aşkar bir ibrət dərsi olmalıdır. Bu həqiqəti xüsusilə də bizim qonşularımız ermənilərin içində yer alan, öz maraqlarını qonşularının maraqları ilə uyğunlaşdırmaqdan və qonşularıyla dinc yanaşı yaşamaqdan imtina edərək yadelli "xilaskarların" ətəyindən yapışan ünsürlər yaddan çıxarmamalıdırlar" (Azerbaidjan, 1918,19 sentyabrya).

Azərbaycanın milli-azadlıq hərəkatının liderləri və ziyalıları Bakı şəhərinin azad edilməsinin tarixi əhəmiyyətini yüksək qiymətləndirməklə yanaşı, onu da bilirdilər ki, bu şəhərin azadlığının qorunub saxlanması da çox mühüm vəzifələrdən biridir. Bu məsələ "Azərbaycan" qəzetinin səhifələrində çap olunmuş yazılarda da öz əksini tapmışdı. Qəzetin sentyabr ayının 22-də çap olunmuş nömrəsindəki bir yazıda da deyilirdi ki, Bakının əsgərlərimiz tərəfindən alınması siyasi baxımdan çox böyük əhəmiyyət kəsb edir. Ancaq yaddan çıxarmaq olmaz ki, imperialist dövlətlərin Bakı neftinə olan marağı çox böyükdür. Ona

görə də bu dövlətlərin Bakıya göz dikmələrinin qarşısını ala bilmək və Bakı üzərində Azərbaycanın qeydsiz-şərtsiz, müstəsna haqqının tanınmasına nail olmaq üçün hələ böyük səylər, diplomatik müzakirələr və bəlkə qur-banlar lazım olacaqdır (Azerbaidjan, 1918, 22 sentyabrya). Görünür elə bunun üçün idi ki, Nəsib bəy Yusifbəyli "Azərbaycan" qəzetinin səhifələrindən Azərbaycan gənclərinə müraciət edir, onları Qafqaz İslam Ordusu tərəfindən daha da möhkəmləndirilmiş Azərbaycan müstəqilliyinin müdafiəsinə səsləyirdi:

"*İştə, təkrar edirəm, övladlarım, Türk Ordusu bizim üçün cənnət qapılarını açmışdır. Oraya vasil olmaq üçün dəstə-dəstə toplanın. Yüz min, iki yüz min toplanın. Evinizi, köyünüzü, şəhərinizi, paytaxtınızı, Azərbaycanınızı, türk ellərinizi, islam məmləkətlərinizi mühafizət üçün kökslərinizi sipər edin. O vaxt bizim istiqlaliyyətimizi tanımayan, tanımasın. Haydı, oğullarım, haydı, silah başına*" (Azerbaycan qazeti, 1918, 3 oktyabr)

**3. "Azərbaycan" qəzeti erməni və gürcülərin Bakı şəhərinin azad edilməsinə münasibəti haqqında**

Ermənilərin və gürcülərin Bakı şəhərinin azad edilməsinə münasibətləri haqqında "Azərbaycan" qəzetinin səhifələrində maraqlı məlumatlarla qarşılaşmaq mümkündür. Bakı şəhərinin işğal altında saxlanmasında və Azərbaycan xalqına qarşı ən amansız təcavüzlərin tətbiq edilməsində erməni-daşnak qüvvələrinin iştirakı danılmaz bir tarixi fakt idi. Bu qüvvələr bütün güclərini sərf etməklə Bakının milli qüvvələrin nəzarəti altında olmasına yol verməməyə çalışırdılar. Bunun üçün onlar hətta İrandan ingilis hərbi qüvvələrini də dəvət edib Bakıya gətirmişdilər. Ona görə ermənilər Bakının azad edilməsi ilə heç cür barışa bilmirdilər və onların bu mövqeyini "Azərbaycan" qəzetinin səhifələrində də görmək mümkündür.

Doğrudur, 1918-ci il sentyabr ayının 15-də Gəncənin erməni arximandriti Levonun rəhbərliyi altında 6 nəfərlik erməni heyəti Baş nazir Fətəli xan Xoyskinin qəbuluna gələrək onu və Nuru paşanın müavinini (çox güman ki, Qafqaz İslam Ordusunun qərargah rəisi Nazim bəy nəzərdə tutulur – G.Ə.) Bakı şəhərinin azad edilməsi ilə bağlı təbrik etmişdilər. Onlar sonra Bakıya getməyə icazə istəmişdilər. Səbəb kimi isə onu göstərirdilər ki, Bakıda narahat günlər keçirən şəhər ermənilərini sakitləşdirmək istəyirlər (Azerbaycan qazeti, 1918, 19 sentyabr)

Əslində isə bu heyətin məqsədi Bakıya yollanmaqla Azərbaycan xalqına qarşı ifrat təcavüzkar siyasəti iflasa uğramış erməni-daşnak qüvvələrini rastlaşacaqları haqlı cəzalardan qurtarmaq idi. Qafqaz İslam Ordusunun Bakıya qədər və Bakı ətrafında apardığı qanlı döyüşlərin başlıca hədəfi əsasən elə erməni-daşnak qüvvələri idi. Çünki Bakı şəhərindəki antimilli hakimiyyət ilk növbədə erməni-daşnak gücünün üzərində bərqərar olmuşdu.

“Azərbaycan” qəzetində çap olunmuş yazıların birində bildirilirdi ki, Bakı şəhəri azad edildikdən dərhal sonra Nuru paşa Azərbaycan ermənilərinə müraciət etdi və onları Qafqaz xalqlarının sülh şəraitində birgə yaşayışına qarşı yönəlmiş mənfi siyasətlərindən əl çəkməyə çağırdı. Həmin yazının müəllifi olan Şəfi bəy Rüstəmbəyli qeyd edirdi ki, qonşumuz olan ermənilər təəssüf ki, fanatik “Daşnaksutyun” partiyasının simasında öz rəhbərləri tərəfindən böyük nisbətdə kor edilmişdir. Müəllif sonra yazırdı ki, öz xalqının tarixində ölümcül rol oynamış bu partiya, mütləq dönüb geriyə baxmalı, bütün tarixi səhvlərini etiraf etməli və öz siyasətini dəyişdirmək istiqamətində radikal addımlar atmalıdır. Məqalədə ermənilərin qonşularına qarşı açıq təcavüzkar siyasət yeritməsində “Daşnaksütyun” partiyasının ziyanlı fəaliyyəti tənqid atəşinə tutulurdu. Bildirilirdi ki, “Daşnaksutyun” partiyası bolşeviklərlə əl-ələ verərək Bakı quberniyasını və Dağıstanı oddan və qılıncdan keçirdi, qədim Şamaxı şəhərini, onun bütün qəzaları ilə birgə xarabazara çevirdi. Vəziyyət dəyişdikdə isə həmin daşnaklar ingilis gücünü öz arxala-rında hiss edərək, bolşevikləri devirdilər və müsəlmanlara qarşı apardıqları ağlasığmaz milli ədavəti bu dəfə ingilislərlə birgə davam etdirdilər. Müəllif öz yazısını belə bitirirdi: “Fəqət bizim üçün vacibdir ki, erməni xalqı,

“*Daşnaksutyun” partiyasının siyasi avantürasının ölümcül mahiyyətini nəhayət anlasın, nə qədər ki, gec deyil, ondan imtina etsin, öz qonşularıyla səmimi, ən yaxşı birgə yaşayış yoluna qədəm qoysun. Başqa bir yol erməni xalqı üçün ölümcül ola bilər*” (Azerbaycan qazeti, 1918, 19 sentyabr).

Nuru paşa eyni zamanda Gəncə ermənilərinə müraciət etdi. Bu müraciət haqqında da “Azərbaycan” qəzetində məlumat vardır. Bu məlumata görə, Qafqaz İslam Ordusu komandanı bu müraciətində Andranikin və “Daşnaksutyun” partiyasının digər rəhbərlərinin bandalarının müsəlmanlara qarşı düşməncə hərəkətlərini qeyd etmiş, erməniləri təxribatlara qapılmaqdan saqındırmış və müsəlmanlarla sülh şəraitində yaşamağa səsləmişdir. Nuri paşa onu da xatırlatmışdı ki, “Daşnaksutyun” meydana çıxmadan əvvəl, müsəlman və erməni xalqları həmişə qarşılıqlı razılıq və dostluq şəraitində keçinirdilər, ermənilər türklərin malik olduqları bütün imkanlardan istifadə edir, yüksək vəzifələrə təyin olunur, rifah içində yaşayırdılar (Azerbaycan qazeti, 1918,19 sentyabr). Bununla belə, “Azərbaycan” qəzetində çap olunmuş məlumatlara görə, Cümhuriyyət hökuməti ölkənin erməni vətəndaşlarına dözümlü şəkildə yanaşırdı və onların ictimai-siyasi həyatda təmsil olunmasını mümkün sayırdı. Ona görə Baş nazir Fətəli xan Xoyski də erməni sakinlərin nümayəndələri ilə görüşdə bəyan etmişdi ki, hökumətin ilk kabinələrində ermənilərin təmsil olunmaması Bakının işğalında onların fəal iştirakı ilə bağlı idi. Onun sözlərinə görə, Bakının azad edilməsindən sonra ermənilərin Azərbaycan parlamentində və hökumətində təmsil edilməsi istisna deyildi (Azerbaycan qazeti,

1918 22 sentyabr). Ermənistandan fərqli olaraq Gürcüstanın hökumət nümayəndələri rəsmi olaraq Bakının azad edimәsini müsbət qarşıladıqlarını bəyan etsələr də, bu respublikanın bəzi ictimai-siyasi dairələri bu hadisəyə öz fərqli münasibətini nümayiş etdirdilər. Məsələn, Gürcüstanın o zamankı baş naziri N.Jordaniya, xarici işlər naziri N.Ramişvili, nəqliyyat naziri Lordkipanidze Bakı şəhərinin azad edilməsi ilə bağlı hökumət adından öz təbriklərini Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəsi M.Y.Cəfərova çatdırmışdılar (Azerbaycan qazeti, 1918 25 sentyabr). Bakının alınmasından dərhal sonra general Levon Maqalovun rəhbərliyi altında Gürcüstanın nümayəndə heyəti Bakıya gəlmişdi. Maqalov 1917-ci ilin dekabr ayında təşkilinə başlanmış Müsəlman korpusunun formalaşmasında böyük xidmətləri olan gürcü zabiti idi. O, Müsəlman korpusunun Tatar süvari alayının komandiri olmuş və Gürcüstan müstəqilliyini elan edəndən sonra Müsəlman korpusunu tərk edərək Tiflisə yollanmışdı (Maqalov.Azerbaycan Xalq Cümhuriyyeti Ensiklopediyası, 2005). Maqalovun Bakıya gəlməkdə məqsədi bolşevik-daşnak zülmündən əziyyət çəkmiş gürcülərin Gürcüstana qayıtmasına kömək etmək və bir də Azərbaycandan mazut alınmasını razılaşdırmaq idi. Bakıda olduğu zaman Maqalov "Azərbaycan" qəzetinin əməkdaşına müsahibə verərək Gürcüstanın rəsmi təmsilçisi kimi Bakının azad edilməsinə öz münasibətini belə ifadə etmişdi:

"*Mən və mənim heyətim Azərbaycan Hökuməti sifətində hamı Azərbaycan türklərini Bakının alınması və yeni müstəqil hökumət təşkili ilə təbrik edib, gələcəkdə dəxi dostanə bir əlaqədə olmamızı arzu ediriz. Azərbaycan Hökuməti bundan belə qom şusu Gürcüstan Hökuməti ilə dostanə əlaqədə olacağını hökumətimizə məlum etmişdir"* (Azerbaycan qazeti, 1918, 8 oktyabr).

Lakin Tiflisdə nəşr olunan bəzi qəzetlər, o cümlədən "Borba" və "Truduvoye znamya" qəzetləri Bakı şəhərinin azad edilməsinə qarşı hədyanlar və həqiqəti əks etdirməyən məlumatlar yaymağa başladılar. Bu qəzetlərin Azərbaycana qarşı təbliğatı elə bir miqyas aldı ki, Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəsi M.Y.Cəfərov Gürcüstanın Xarici İşlər Nazirliyinə rəsmi müraciət göndəməli və bu Nazirlikdən adları çəkilən qəzetlər tərəfindən Cümhuriyyət ordusunun təhqir edilməsinə son qoyulmasını və günahkar adamların da məsuliyyətə cəlb olunmasını xahiş etmişdi (Azerbaycan qazeti, 1918, 22 sentyabr). "Azərbaycan" qəzetindəki məlumata görə, Tiflisdə nəşr olunan "Borba" qəzeti Bakının azad edilməsini kinli xəbərlərlə yada salırdı. Məsələn, Bakının işğal altında olduğu aylar ərzində şəhərin azərbaycanlı əhalisinə qarşı törədilən soyqırımı və qətlləri xatırlamadan bu qəzetin əməkdaşları şəhərin azad edilməsindən sonra işğalçılara qarşı amansız mövqe tutulacağından təşviş keçirirdi. Yəni ciddi bir əsas olmadan əvvəlcədən belə bir şayiəyə yol verirdi.

"Azərbaycan" qəzetinin əmakdaşları isə haqlı olaraq qeyd edirdilər ki, qonşu Gürcüstanın nüfuzlu qəzeti öz oxucularına təmkinli bir mövqe göstərmək əvəzinə, Bakıda meydana gələ biləcək qırğınlar barəsində qabaqcadan ildırımlar yağdırırdı. Halbuki, 1918-ci il martın 20-si günündə Bakının küçələri on minlərcə azərbaycanlının qanıyla qızıla boyananda, gürcü qəzetinin demokratiya müdafiəçilərinin dodaqlarındakı narahatlıq sözləri, qəzəbin müqəddəs alovu heç də görünmürdü. "Azərbaycan" qəzeti sonra bildirirdi ki, "Borba" qəzeti əhalisinin əksəriyyəti müsəlmanlardan ibarət Bakının, müsəlman Azərbaycanın paytaxtı olacağı düşüncəsindən narahatlıq keçirir. Ona görə də "*düşmənlərimizin kini, qanuni pay-taxtımızın müxtəlif avantüristlərdən təmizlənməsindən irəli gələn sevincimizi daha da artırır*" (Azerbaycan qazeti,1918, 25 sentyabr).

"Azərbaycan" qəzetinin 4-cü nömrəsində bəzi gürcü qəzetlərinin Bakının azad edilməsinə qərəzli münasibətinə ayrıca bir məqalə də həsr edilmişdir. Gürcü sosialist-inqilabçıların orqanı olan "Trudovoye znamya" qəzeti Bakının azad edilməsində iştirak etmiş Azərbaycan bölmələrini "qaranlıq güclər" adlandırırdı. "Borba" qəzeti isə Bakının Qafqaz İslam Ordusu tərəfindən azad edilməsinə belə münasibət bildirirdi: "*Bakının süqutunun acı xəbəri gəlib çatdı. Şəhərin müdafiəçilərinin qəhrəmanca müqaviməti, düşmənin sayca inanılmaz üstünlüyü qarşısında qırıldı. Türk əsgərlərinin sürüsü və Azərbaycan bandaları şəhərə soxuldular. Biz bu sətirləri yazarkən, bəlkə də Bakının küçələrində amansız qırğınlar gedir"* (Azerbaycan qazeti, 1918, 22 sentyabr). Amma Gürcüstanda nəşr olunan qəzetlər arasında Bakının azad edilməsinə müsbət yanaşanlar da var idi. Məsələn gürcü millətçilərinin orqanı olan "Qruziya" qəzeti belələrindən idi. Bu qəzet Bakının azad edilməsini öz oxucularına belə çatdırırdı:

*"Bu faktın böyük əhəmiyyət daşıdığı hamıya aydındır. Düşmən koalisiyanın Zaqafqaziya sərhədləri daxilindəki axırıncı dayağı – ingilislərin Zaqafqaziya xalqlarının taleyinə birbaşa müdaxilə edəcəklərinə dair əsassız şayiə və ümidləri bu vaxta qədər dəstəkləyən və qidalandıran ingilis-rus qalası aradan qaldırılır"* (Azerbaycan qazeti, 1918, 22 sentyabr).

**Nəticə**

Aparılan araşdırma bir daha onu göstərir ki, Qafqaz İslam Ordusu tərəfindən Bakı şəhərinin azad edilməsi haqqında "Azərbaycan" və "Azerbaydjan" qəzetlərinin səhifələrində maraqlı tarixi məlumatlar mövcuddur. Bu məlumatlar həm də Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin mövqeyini əks etdirirdi. Ona görə də həmin məlumatların doğruluğu və mötəbərliyi tarixi həqiqətlərin daha ətraflı şəkildə ortaya çıxarılması üçün elmi əhəmiyyət kəsb edir

**Ədəbiyyat**

Azerbaycan genclerine (1918, 3 oktyabr). *Azerbaycan qazeti.*

Bakıda vaziyyet, ( 1918, 25 sentyabr). *Azerbaycan qazeti.*

Bakının alınması Tiflis metbuatında. (1918, 25 sentyabr). *Azerbaycan qazeti.*

Bakının alınması haqqında (1918, 22 sentyabr). *Azerbaycan qazeti.*

Bakının alınması haqqında, (1918,19 sentyabr). *Azerbaycan qazeti.*

Bakının alınması haqqında, (1918, 25 sentyabr). *Azerbaycan qazeti.*

Bakının alınması haqqında. (1918, 19 sentyabr). *Azerbaycan qazeti.*

Bakının alınması haqqında. (1918 22 sentyabr). *Azerbaycan qazeti.*

Bakının azad olması. *Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası [2 cilddə]* (2004). Baş redaktor Y.Mahmudov. (c.1, s. 262-264). Lider nəşriyyatı

Bakının süqutu haqqında (1918, 22 sentyabr). *Azerbeycan qazeti.*

Bakının süqutu haqqında, (1918, 22 sentyabr). *Azerbaycan qazeti.*

Bakının süqutu haqqında. (1918, 22 sentyabr). *Azerbaycan qazeti.*

Bakının süqutu, ( 1918, 15 sentyabr). *Azerbaycan qazeti.*

Bakının süqutu, ( 1918, 15 sentyabr). *Azerbaycan qazeti.*

Bakının süqutu, ( 1918, 15 sentyabr). *Azerbaycan qazeti.*

Dağıstani C (1918, 3 oktybr). Tarixi gün. *Azerbaycan qazeti.*

Gencə, 8 zilhicce (1918, 15 sentyabr). *Azerbaycan qazeti.*

Gürcü heyeti. (1918, 8 oktyabr). *Azerbaycan qazeti.*

*İran ərazisində düşmənin irəliləməsini dayandırmaq və Xəzər dənizinə hakim olmaq xüsusunda ingilis planları* (2008). Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu.

*Qafqaz İslam Ordusu hərəkatı.* (2008). Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. (Red. M. Rıhtım və M. Süleymanov). (s.264 – 265). Nurlar nəşriyyatı.

Qafqaz İslam Ordusu Komandanlığı Ordu İstixbarat şöbəsindən (1918, 15 sentyabr). *Azerbaycan qazeti.*

Qyandja, 22 sentyabrya 1918. (1918, 22 sentyabrya). *Azerbaidjan.*

Qyandja, 19 sentyabrya 1918. (1918,19 sentyabrya). *Azerbaidjan.*

Qyandja, 19 sentyabrya 1918. (1918,19 sentyabrya). *Azerbaidjan.*

*Maqalov.Azerbaycan Xalq Cümhuriyyeti Ensiklopediyası* [2 cilddə]. (2005). (Baş redaktor Y.Mahmudov). (C. 2, ss.175-176). Lider neşriyyatı.

Süleymanov, M. (2018). *Azərbaycan Ordusunun tarixi [5 cilddə]*. (C.1). Maarif nəşriyyatı.

Ş.R. Ağlını başına yığmaq vaxtıdır, (1918, 19 sentyabr). *Azerbaycan qazeti.*

Yerli xronika.(1918,19 sentyabr). *Azerbaycan qazeti.*